

■ **Eminə Sevinc Öksüzoğlu**
*Türkiyə*

## TÜRK QƏHVƏSİNİN DADI

Sənsiz fəsillər də ötməz, adlamaz,
Sənsiz
ürəyimdə hər fəsil - ayaz.
Bu öksüz taledən gündüzlər keçər,
Mənsə - sənsizliklə dolu bir gecə.

Sabaha çıxmaz ki, yalan yuxular,
Yorğun nağıllar da qəlbimdə sirdir.
Adına yazdığım şeiri oxuma,
Oxuma o gizli sevdamı bir də.

Sən adda sevdalar sardı ruhumu,
Sənə bağlı sevdam - qanlı bir yara.
Ürəyim sirdaşsız quşdur, oxumur,
Gəl, ya sevgilim ol, ya həsrət ara.

Üzündə - sevdalı, gülüşlü riya,
Hərcayi keçmişin odu qalıbdır.
Dilində ekzotik bir melodiya,
Bir də içdiyimiz "Türk qəhvəsinin"
dadı qalıbdır.